# YENİ HƏDƏFLƏRƏ DOĞRU!

# Rəşad Mahmudov: Mənə göstərilən bu yüksək etimadı doğrultmağa çalışacağam

## MƏNİM ÜÇÜN ƏN BÖYÜK UĞUR YAŞLAŞARKƏN VƏ YA SƏHHƏTİMDƏ BİR PROBLEM YAŞANDIĞI ZAMAN GÖZÜMÜ YUMARAQ ÖZÜMÜ TAM ARXAYINLIQLA TƏSLİM EDƏ BİLƏCƏYİM KADRLARIN YETİŞMƏSİDİR



**Mərkəzi Neftçilər Xəstəxanasının Ürək-Damar Xəstəlikləri Mərkəzinin rəhbəri, tibb elmləri doktoru, Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizəd Rəşad Mahmudovun "İki sahil" qəzetinə müsahibəsi**

***-Rəşad müəllim, artıq deputatlığa namizədlərin təbliğat-təşviqat kampaniyası başa çatır. Seçicilərlə görüşləriniz necə keçir, onlara hansı vədləri verirsiniz?***

-Etiraf edim ki, seçicilərlə görüşlər mənim həyatımda yeni bir təcrübə idi. Bildiyiniz kimi, mən orta məktəbi bitirdikdən sonra Türkiyədə 12 illik tibb təhsili almışam. Ürək-damar cərrahiyyəsi, aspirantura və doktoranturada oxumuşam. Elmi işlər yazaraq tibb elmləri namizədi və bir ay əvvəl isə tibb elmləri doktorluğunu müdafiə etmişəm. Yəni, həyatım demək olar ki, praktiki ürək xəstəlikləri ilə mübarizə və elmi işlərlə bağlı olub. Bu baxımdan deputatlığa namizədlik mənim üçün tamamilə yeni bir səhifədir. Bəlkə də bu baxımdan idi ki, seçicilərlə görüşlər mənə yeni bir həyəcan verdi. Xalqın içində olmaq, bölgələrdə, kəndlərdə seçicilərlə görüşmək çox xoşdur. Amma onlara söz verərkən bunun məsuliyyətini daşıya bilmək lazımdır, verilən vədlərə, sözlərə şübhəsiz ki, əməl edilməlidir. Artıq bu gün seçicilərlə görüşlərimiz uğurlu bir şəkildə başa çatdı. Mən seçicilərlə yaxından ünsiyyətdə olub onların problemlərini dinlədim, müəyyən qeydlər apardım. Əgər deputatlığa namizədliyim mandata çevrilərsə bu və digər məsələlər var ki, onları Milli Məclisdə səsləndirəcəyəm. Çalışacağam ki, hər bir seçiciyə imkanım qədər köməklik göstərim. Onların qarşısında populist çıxışlar etməmişəm, nəyə imkanım var və bundan sonra da nəyə imkanım olacaqsa onlar üçün əlimdən gələni əsirgəməyəcəyimi hər görüşdə demişəm. Astara rayonunun daha da gözəlləşməsi, yeni iş yerlərinin açılması, əhalinin yaşayış şəraitinin maksimuma çatdırılması və digər istiqamətlərdə bütün səylərimi səfərbər edəcəyəm. Bu, hər şeydən əvvəl bütün azərbaycanlıların olduğu kimi, mənim də ilk olaraq vətəndaşlıq borcumdur. Mənə göstərilən bu yüksək etimadı layiqincə doğrultmağa çalışacağam.

***-Çox uğurlu həkimlik karyeranız var, həm Azərbaycanda, həm də dünyada kifayət qədər tanınırsınız. Bəs necə oldu ki, deputatlığa namizəd oldunuz?***

-Düşünürəm ki, hər bir şəxsin öz əqidəsi və istinad nöqtəsi olmalıdır. Bu baxımdan mən uzun illərdir ki, Azərbaycanımızın xilaskarı rolunda çıxış edən Yeni Azərbaycan Partiyasının üzvüyəm və bacardıqca partiya işlərində fəal şəkildə iştirak edirəm. Davamlı olaraq inkişaf edən YAP-ın hər seçkilərə yeni bir proqramla qatılması artıq adət halını alıb. Partiyamız bu seçkilərdə cəmiyyət arasında daha çox tanınan, təmsil olunduğu dairədə hörmət və nüfuz sahibi olan şəxsləri, ziyalıları ön plana çıxarıb. Sözsüz ki, Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədlərin siyahısında mənin də adımın olması çox sevindirici və qürurverici bir haldır. Bu işin məsuliyyəti də çox böyükdür. Deputatlığa namizədliyim YAP tərəfindən irəli sürüləndə bir anlıq Azərbaycan səhiyyəsinin daha da inkişaf etdirilməsi, regionlarda yerli kadrların hazırlanması və təkmilləşdirilməsi, hər gün yenilənən müasir tibbi avadanlıqların ölkəmizə gətirilməsi və digər məsələlərin daha intensiv və genişmiqyaslı həlli üçün bunun çox gözəl bir şans olduğunu düşündüm. İnanıram ki, seçiləcəyim halda sadalanan məsələlərin həlli istiqamətində işlərin görülməsinə nail olacağam. Ən başlıcası məni bu şərəfə layiq bildikləri üçün Yeni Azərbaycan Partiyasına və onun Sədri, Prezidentimiz möhtərəm İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Allah nəsib etsin ki, bizə göstərilən bu böyük etimada layiq ola bilək.

***-Deputat seçiləcəyiniz halda həkimlik fəaliyyətinizi davam etdirəcəksiniz, yoxsa...?***

-Bildiyiniz kimi, ürək-damar xəstəlikləri ölümə səbəb olan xəstəliklərdəndir və bununla mübarizənin düzgün aparılması ölkədəki səhiyyə kriteriyalarının səviyyəsini çox yüksəldir. Bu səbəbdən mütəmadi olaraq bölgələrdə regional proqramlar, elmi-praktik konfranslar keçirilir. Mənim üçün təsəllverici məqamlardan biri də odur ki, Azərbaycandakı 10 illik fəaliyyətim nəticəsində böyük bir məktəb yaranıb. Bu gün mənim iştirakım olmadan açıq ürək əməliyyatları edən 8 tibbi personal yetişib. 20 günlük uşaqdan başlayaraq 95 yaşlı insanlara qədər hər cür əməliyyat komandamızın kadrları tərəfindən tətbiq oluna bilir. Belə əməliyyatlardan ən sonu isə dünən Astara rayon Mərkəzi Xəstəxanasında həyata keçirilib. Rayonun Kijəbə qəsəbə sakini olan Babayeva Vüsalə Elşad qızı üzərində canlı donordan - anası Qənbərova Nazilə Əyyub qızından götürülmüş böyrək köçürülməsi əməliyyatı uğurla başa çatdırılıb.

Bunlar böyük nailiyyət olsa da, kifayətlənməyə əsas vermir. Mənim üzərimə düşən əsl məsuliyyət tibb sahəsinin inkişafını irəliyə aparmaqdır. Tibb hər gün inkişaf edir. Bu yenilikləri davamlı olaraq Azərbaycana gətirməliyik. Bizim bir şüarımız var: "Özümüzü düşünmədən təslim edə biləcəyimiz Azərbaycan həkimi naminə!". Bu o deməkdir ki, istər Bakıda, istər rayonlarda hər hansı bir insanın canı ağrıyan zaman düşünməsin ki, hansı həkimə gedim. Bunun üçün ən birinci güclü kadrlara ehtiyac var. Belə qərara gəlmişəm ki, deputat seçiləcəyim halda daha çox əməliyyatlara üstünlük verməkdeyil, yerli kadrların hazırlanması istiqamətində səylərimi genişləndirim. Mənim üçün ən böyük uğur yaşlaşarkən və ya səhhətimdə bir problem yaşandığı zaman gözümü yumaraq özümü tam arxayınlıqla təslim edə biləcəyim kadrların yetişməsidir.

***-Milli Məclisin deputatı seçiləcəyiniz halda hansı məsələlərlə bağlı çıxış etməyi düşünürsünüz?***

-Mən 1991-ci ildə ilk dəfə Türkiyənin turizm mərkəzi olan Antalyada olarkən orada avtomobillərin seriya nömrəsinin 07 ilə başladığını, dənizlə meşənin, dağın vəhdət təşkil etdiyini gördüm. Eyni zamanda, şəhərin adı A hərfi ilə başlayıb A hərfi ilə bitir. Bu sözləri namizədliyimin irəli sürüldüyü Astara rayonu haqqında da demək olur. Bunları göz önünə gətirəndə sual yaranır: bəs Astara Azərbaycanın Antalyası ola bilməzmi? Digər bir istəyim isə rayon xəstəxanasının Azərbaycanın digər rayon xəstəxanaları ilə yanaşı, ən gözəl müalicə mərkəzlərindən birinə çevrilməsidir. Qoy hər bir rayon sakini artıq xərc çəkərək Bakıya gəlmədən, öz doğma rayonunda əməliyyat olunsun, problemini həll etsin. Bu gün dövlətin və özlərinin şəxsi hesablarına xarici ölkələrdə oxuyan, işləyən tələbələr və peşəkar həkimlər var. Onları Azərbaycana-öz ölkələrinə cəlb etmək lazımdır. Lənkəran şəhərindəki tibb kollecində təhsilin keyfiyyətini daha da yüksəltmək lazımdır. Regionların inkişafında mənim inandığım ən əsas faktorlardan biri isə ən vacib sənətləri öyrədə biləcək təhsil ocaqlarının sayının daha da artırılmasıdır. Təbii ki, hələ görüləsi işlərimiz çoxdur. Çünki Azərbaycan hər gün inkişafa doğru irəliləyir, bu inkişaf isə paralel olaraq bizdən durmadan səylə çalışmağı tələb edir.

***-Namizədliyinizi irəli sürən Yeni Azərbaycan Partiyası seçkilərə "Yeni hədəflərə doğru!" şüarı ilə gedir. Sizcə, hansıdır bu hədəflər?***

- Bəli, partiyamızın rəhbərliyi əsas deviz kimi məhz bu şüarı irəli sürüb. Sözsüz ki, əvvəlki seçkilərdə də müəyyən hədəflər müəyyənləşdirilib və hədəflərin, məqsədlərin bir hissəsinə çatılıb. Bu seçkilərlə bir inkişaf mərhələsi artıq arxada qalır, yeni bir inkişaf mərhələsi başlayır və bu, bizdən yeni hədəflər tələb edir. Bilirik ki, Azərbaycanın intellektual, hərbi, iqtisadi inkişafı, tariximizin öyrənilməsi, mənəviyyatımızın gücləndirilməsi, milli ailə modelinin qorunması və təbliğ olunması, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması bir növ bizim müstəqilliyimizi əldə etdikdən sonra qarşıya qoyduğumuz hədəflərin bir hissəsi idi. Bunlar əldə olunub. Bu gün Azərbaycan iqtisadiyyatı güclüdür, güclü ordu yaradılıb, intellektual əsaslarda yeni cəmiyyət formalaşıb, Azərbaycan həqiqətləri dünyaya çatdırılıb, informasiya mübarizəsində Azərbaycan Ermənistanı iki dəfə qabaqlayır, Azərbaycanın dostları adlandırılan beynəlxalq şəbəkə formalaşıb, nəhayət, bu gün Azərbaycan sözün həqiqi mənasında müstəqil dövlət olmağı bacarıb. Bugünkü beynəlxalq münasibətlərin diktə etdiyi şərtlər içərisində bu, çox böyük nailiyyətdir. Biz bilirik ki, Azərbaycandan qatqat güclü ölkələr bəzən müstəqil ola bilmirlər. Öz milli maraqlarını, müstəqilliklərini qoruya bilmədikləri üçün onlar imperialist mərkəzlərin poliqonuna, istismar obyektinə çevrilirlər. Ölkələri dağıdılır, dövlətləri əllərindən alınır, iqtisadi, yeraltı və yerüstü resursları talan edilir. Məhz belə bir şəraitdə Azərbaycan ilk hədəfinə çataraq müstəqilliyini sözün həqiqi mənasında qoruya bilib.

***- Seçki kampaniyasında YAP-la yanaşı digər partiyalar da mübarizə aparır. Sizcə, hansı partiyanın şansları daha çoxdur və bunu nə ilə izah edərdiniz?***

-Azərbaycanda çoxpartiyalılıq mövcuddur və istənilən partiya sərbəst şəkildə, qanunlar çərçivəsində fəaliyyət göstərə bilir. Buna baxmayaraq, Yeni Azərbaycan Partiyasını ölkəmizdəki heç bir partiya ilə müqayisə etmirəm. YAP bu gün təkcə Azərbaycanın deyil, regionun ən güclü siyasi təşkilatıdır. Onun yaradıcısı, xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın Azərbaycanı haralardan haralara gətirdiyi göz qabağındadır. Heç kim reallıqları dana bilməz. YAP yarandığı vaxtdan bu günə qədər göstərdiyi fəaliyyət sayəsində ümumxalq partiyası adını qazanmağı bacarıb. Biz bilirik ki, hər hansı partiyanın ümumxalq partiyası kimi səciyyələndirilməsinin özünəməxsus şərtləri var. Bu şərtlər yerinə yetirilməyənə qədər heç bir siyasi təşkilat haqqında bu sözü demək mümkün deyil. Bildiyiniz kimi, partiyamız yaranan zaman onun Proqram və Nizamnaməsini Ulu Öndərimizin özü yazıb. Əslində, bu Proqram və Nizamnamə Azərbaycan xalqının siyasi, iqtisadi maraqlarını, mədəni, milli mənəvi dəyərlərini, bütövlükdə dövlətçilik maraqlarını qoruması özündə ehtiva edən sənədlərdir. Məhz bu sənədlərdən irəli gələn tələblərin yerinə yetirilməsi zaman-zaman YAP-ı ümumxalq partiyası kimi səciyyələndirməyə gətirib çıxardı.

YAP elə bir siyasi təşkilatdır ki, burada Azərbaycan cəmiyyətinin bütün sferalarını təmsil edən üzvləri tapmaq olar. Müxtəlif partiyalar, əslində, müxtəlif ideologiyaların ətrafında cəmləşən insanların birliyidir. Amma məsələ ondadır ki, YAP-ın rəqiblərinin heç biri onun üzvlərini birləşdirəcək ideologiyaya sahib deyil. YAP isə bu mənada istisnadır. Təbii ki, partiyamız durmadan yenilənir, müasirləşir, beynəlxalq əlaqələrini genişləndirir, müxtəlif təşəbbüslərlə çıxış edir. Bu yenilikçi ideyalar YAP-ın Proqram və Nizamnaməsindən, partiyamızın Sədri, möhtərəm Prezidentimiz İlham Əliyevin çıxışlarında irəli sürülən tezislərdən irəli gəlir. Bu və digər səbəblərdəndir ki, seçicilərin böyük etimadını qazanan YAP bütün seçkilərdə rəqiblərinə açıq-aşkar üstünlüklə qalib gəlir. Bunun noyabrın 1-də də belə olacağına şübhə yoxdur.

**Taleh Bağırov, "İki sahil"**